# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi” publik hüquqi şəxsin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 13 fevral tarixli 48-07/S nömrəli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” 2022-ci il 21 fevral tarixli 40 nömrəli Qərarında dəyişiklik edilməsi və bir sıra qərar və sərəncamlarının ləğv edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi” publik hüquqi şəxsin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 13 fevral tarixli 48-07/S nömrəli Sərəncamının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 fevral tarixli 40 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərar və sərəncamları ləğv edilsin:

2.1. “Dövlət Taxıl Fonduna taxılın tədarükü, saxlanması və istifadəsi haqqında” hesabat formalarının təsdiq olunması barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 avqust tarixli 56 nömrəli Qərarı;

2.2. “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 noyabr tarixli 97 nömrəli Qərarı;

2.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 noyabr tarixli 88s nömrəli Sərəncamı;

2.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 avqust tarixli 103s nömrəli Sərəncamı.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “4” aprel 2025-ci il

№ 21